*UOT-811.11-112*
*Səhifə: 146-150*
https://doi.org/10.59849/2663-8967.2026.1.146

***Nəzrin Mustafayeva***
***Bakı Dövlət Universiteti***
***nezrinmustafayeva9@gmail.com***

# DİLİN MƏNİMSƏNİLMƏSİNİN LİNQVOPSİXOLOJİ PROBLEMLƏRİ: PSİXOLOJİ VƏ LİNQVİSTİK ASPEKTLƏR

## XÜLASƏ

Dilin mənimsənilməsi məsələsi müxtəlif – linqvistik, psixoloji, bioloji, sosioloji cəhətləri əhatə etsə də, onun mərkəzində psixoloji və linqvistik aspektlər dayanır. Hər iki aspekt görkəmli Amerika "dil mühəndisi" Noam Xomskinin keçən əsrin ortalarından başlayan, 90-cı illərdən daha dərin metodoloji əhəmiyyət kəsb edən araşdırmaları ilə öz prinsipial mövqelərini qərarlaşdırmışdır. Dilin (dillərin) universal təbiəti, alt və üst strukturlar arasındakı transformativ əlaqələr dil və təfəkkür münasibətlərinin mümkün qədər daha emprik, daha sadə və dilin mənimsənilməsi probleminin həlli üçün daha optimal baxışlar sisteminin formalaşmasına imkanlar açmışdır.

Doğrudur, N.Xomskinin "Minimalist nəzəriyyə"sində sual doğuran bir sıra məqamlar vardır, ancaq dilin mənimsənilməsi probleminin izahı üçün təklif olunan digər nəzəriyyələr, əvvəla, bu qədər ardıcıl deyil, ikincisi, dillə təfəkkürü qarşılıqlı əlaqədə almaqda bu qədər texniki dəqiqliyi özündə ehtiva etmir. Odur ki, son dərəcədə mürəkkəb problemin həllinə kömək edəcək prinsiplərin təkmilləşdirilməsində N.Xomski "layihə"si nəinki elmi nüfuzunu qoruyub saxlamaqda, eyni zamanda müəyyən "törədicilik" imkanları nümayiş etdirməkdədir.

***Açar sözlər:*** *N.Xomski, dilçilik, psixoloji aspekt, linqvistik aspekt, V.Humboldt, antroposentrik dilçilik, törədici qrammatika.*

**Giriş**: Dilçilik elminin antroposentrik inkişaf paradiqmasına daxil olduğu keçən əsrin ortalarından sonra dilin mənimsənilməsi probleminin həllinə çox müxtəlif elmi istiqamətlərin nüfuzu, humanitar, təbiət və texniki araşdırma metodlarının əməkdaşlıq cəhdləri konkret nəticələrin alınması üçün müəyyən ümidlər versə də, etiraf etmək lazımdır ki, tədqiqat prosedurunun özünü də xeyli dərəcədə mürəkkəbləşdirmişdir.

A.Məmmədov yazır: "Məlum olduğu kimi, psixolinqvistika iki elm sahəsinin – dilçilik və psixologiyanın qovşağında yaranmış və onun predmeti dil və nitqin psixoloji tərəflərinin tədqiqidir. Maraqlıdır ki, psixolinqvistik baxışların təşəkkül tapdığı dövrlər ABŞ- da biheviorist (davranış) psixologiyasının sürətli inkişafı ilə bağlıdır. O dövrdə psixolinqvistikaya sırf psixoloji və sırf linqvistik aspektdən yanaşma mövcud idi" [1, s. 14].

A.Məmmədov ilk yanaşmanın Ç.Osqudun davranış nəzəriyyəsinə əsaslandığını qeyd edirsə, digər tərəfdən N.Xomskinin yeni yanaşma – transformasion törəmə (linqvistika) modeli təklif etdiyini xatırlatdıqdan sonra əlavə edir ki, "ümumiyyətlə törədici dilçiliyin fərqləndirici xüsusiyyətlərindən biri bu təlimdə dilçiliyin dil haqqındakı elm kimi deyil, dili bilmək haqqında elm kimi nəzərdən keçirilməsidir. Bu dilçilikdə nitqə hər hansı bir abstrakt anlayış kimi deyil, insan təfəkkürünün, onun bir hissəsi olan insanın dil aparatının bir xüsusiyyəti qismində baxılır" [1, s. 14].

Törədici qrammatika ilk planda linqvistik aspekti çıxarır, digər tərəfdən arxa planda isə bioloji, psixoloji və sosioloji aspektləri inkar etmir və onları danılmaz fakt olaraq, insan mövcudluğunun üzvi elementləri sayır. Bununla yanaşı dilin araşdırılması zamanı "Dil və təfəkkür" müəllifi linqvistik və psixoloji aspektlərin birbaşa qarşılıqlı əlaqəsindən bəhs edir və yazır: "Düşünürəm ki, dil təliminin uzun müddətli əhəmiyyəti ondadır ki, bu təlimdə psixologiyanın bəzi mərkəzi məsələlərinin nisbətən dəqiq və aydın formulasını vermək və onların

çoxsaylı sübutunu gətirmək mümkündür. Daha əhəmiyyətlisi isə dil təliminin hal-hazırda unikal mahiyyət daşımasıdır" [1, s. 105].

N.Xomski göstərir ki, bəhs olunan unikallığın dil haqqındakı yeni təlim (törədici dilçilik) məlumat bazasının zənginləşməsi ilə yanaşı, problemlərin həllində psixologiya ilə linqvistikanın strateji əməkdaşlığında, habelə köklü, əsaslı problemlərin bərabər müəyyənləşdirilməsində özünü göstərir və həmçinin heyvandan insana doğru inkişafın düzgün olub-olmaması probleminə də məhz bu baxımdan yanaşmağı təklif edir:

"...İnsan dilinin intellektual qabiliyyətinin daha aşağı səviyyələrində özünü büruzə verən çox primitiv sistemlərdən təkamüllə yarandığını izah edən problemləri qaldırmaq kifayət qədər mənasızdır" [1, s. 106].

Amerika dilçisi həmin mənasızlığı izah edərkən mövcud araşdırmalara , daha doğru desək, onların tənqidi təhlilinə əsaslanmağa çalışır və bunun üçün ilk olaraq analitik fəlsəfənin avstriyalı nümayəndəsi K.Popperin "dilin digər orqanizmlərdə aşkar olunana bənzər daha sadə sistemlərdən təkamülü" haqqındakı fikrini diqqət mərkəzinə alaraq yazır:

"Popper iddia edir ki, dil təkamülü bir neçə mərhələdən keçmişdir. Məsələn, "aşağı mərhələ"də səsli jestlər emosional vəziyyətin ifadəsi üçün istifadə olunur, "yuxarı mərhələ"də isə tələffüz edilən səslər fikrin, Popperin terminlərində, təsvir və tənqidi dəlil məqsədilə ifadəsi üçün istifadə olunur" [1, s. 106].

Aydın olur ki, K.Popperin ayırdığı "birinci mərhələ"də, əgər belə demək mümkünsə, dil psixikanın, "ikinci mərhələ"də isə, əksinə, psixika dilin təsiri altında olur. Ehtimal olunur ki, N.Xomski bu cür əks münasibəti nəzərə alaraq yazır: "Onun dilin təkamül mərhələləri haqqındakı fikirləri belə bir ardıcıllıq nəzərdə tutur, lakin faktiki olaraq o, aşağı ilə yuxarı mərhələlər arasında heç bir əlaqə müəyyənləşdirmir və keçidin bir mərhələdən digərinə adlaya bilməsi mexanizmini təklif etmir" [1, s. 106-107].

Əslində, K.Popperin müəyyənləşdirdiyi bu "təkamül mərhələləri" arasında "Dil və təfəkkür" müəllifinin dediyi kimi, nəinki üzvi, məntiqi bir əlaqə də yoxdur, həmçinin həmin "mərhələlər"in praktik olaraq varlığından danışmaq da şübhəlidir; yəni "səsli jestlərin emosional vəziyyətin ifadəsi üçün istifadəsi" öz-özlüyündə hansısa bir "təkamül vəziyyəti"ni əks etdirə bilmədiyi kimi "tələffüz edilən səslə fikrin təsvir və tənqidi dəlil məqsədilə ifadəsi üçün istifadə" də son dərəcə absurd adlandırıla bilər. Burada mürəkkəb olduğu qədər də təbii linqvistik-psixoloji məsələyə, bir növ, mexaniki və ya sxematik baxışın yer aldığını da qeyd etmək lazım gəlir.

Öz fikirlərinin izahına çox zaman V.fon Humboldta istinadən başlayan "Dil və təfəkkür" müəllifi onun "dil forması" barədəki təsəvvür-təlimini xatırladır. Orada göstərilirdi ki, "dil forması" tələffüz edilən, struktur cəhətdən təşkil olunmuş siqnalları fikrin ifadəsinədək qaldırmaq kimi əqli fəaliyyətə işarə edən daimi və dəyişməyən proseslər sistemidir" [1, s.111]. Bu istinaddan sonra öz qrammatikasının linqvistik və psixoloji təhlil imkanlarını aşağıdakı şəkildə dəyərləndirir:

"Hər bir belə qrammatikada xüsusi, şəxsi səciyyələndirən elementlər var və onların seçilməsi bir spesifik insan dilini təyin edir; onda həmçinin "universal qrammatika"nın tədqiqinin predmetini müəyyənləşdirən hər hansı bir insan dilinin formasını və təşkilini şərtləndirən ümumi universal elementlər mövcuddur" [1, s. 111].

Müasir koqnitiv dilçilik araşdırmaları təsdiq edir ki, dilin mənimsənilməsi biliklərin toplanması, sistemə salınması və ötürülməsi proseslərindən kənarda baş verə bilməz. "Məlum məsələdir ki, dil öz-özlüyündə dünyanı dərk edib onun mənzərəsini yaradacaq bir mexanizm deyil. Burada həlledici işi təfəkkür – dərrakə – şüur (və yaddaş) fenomeni görür, dil isə kifayət qədər fəal bir şəkildə həmin işin nəticələrini təsbit edir" [2, s. 188]. Əlbəttə, bu son mülahizəyə də mexaniki yanaşılmamalıdır. Hər şeydən əvvəl ona görə ki, dilin təfəkkürlə münasibəti yalnız son dərəcə yüksək fəlsəfi- metodoloji mücərrədləşmə əsasında təsəvvür və ya təyin edilə bilər.

N.Xomski törədici qrammatikanın səriştə konsepsiyasının inkişafındakı rolunu qiymətləndirərkən əlavə etmişdir ki, "biz səriştənin, yəni ayrı-ayrı dillər üçün formalaşmış fraqmentar törədici qrammatikaların izahı sahəsində ilk addımları atmışıq. Dil təlimi inkişaf etdikcə biz əminliklə gözləyə bilərik ki, həmin qrammatikalar həcm və dərinlik baxımından genişlənəcək" [1,s.119].

“Dil və təfəkkür” müəllifinin törədici qrammatikanın gələcək imkanları barədəki mülahizələrində dilin mənimsənilməsi problemi ilə bağlı maraq doğurmayan cəhətlərdən biri də törədici qrammatikanın nə dərəcədə linqvistik və nə dərəcədə psixoloji olub-olmaması sualıdır. Verilən izahlar belə bir nəticəyə gətirir ki, burada da kəskin hüdudlandırma qoymaq mümkün deyil.

Yenidən biliklə təcrübə arasındakı münasibət məsələsinə qayıdan N.Xomski “anadangəlmə strukturu müəyyənləşdirmə”yə ona görə xüsusi cəhd göstərir ki, “bu struktur mövcud zaman və faktiki materialın əldə olunması məhdudiyyətləri çərçivəsində emprik olaraq əsaslandırılmış generativ qrammatikaların formalaşmasını izah edə bilər” [1,s.120]. Görkəmli dilçi-mütəfəkkir əmindir ki, “dilin mənimsənilməsini mümkün edən bu anadangəlmə mental strukturun həqiqi təbiətinə dair baxış fərqləri”ni müəyyənləşdirmək üçün mövcud “faktiki vəziyyət kifayət qədər dumanlı” olsa da, həmin məsələnin emprik olması şübhəsizdir və... həll edilə bilər” [1, s.120].

“Dil və təfəkkür” kitabında öz əksini tapmış mülahizələr, ümumiyyətlə, belə bir təsəvvür doğurur ki, N.Xomski dilin mənimsənilməsi məsələsinə dair qənaətlərində çox nadir hallarda nəzəri-fəlsəfi, yaxud metodoloji mövqe sərgiləməyə cəhd göstərir. Onun əsas məqsədi problemi mümkün qədər özünün emprik təhlilə gələn tərəfləri ilə həll etməkdən ibarətdir. Amerika filosofları N.Qudmən və H.Putnəmin baxışları ilə polemikaya girərkən də, prinsip etibarilə, həmin mövqedən çıxış edir.

N.Qudmənin dilin mənimsənilməsi barədə Kartezian dövründən başlayaraq meydana çıxmış “anadangəlmə” doktrinasının tarixini düzgün başa düşməməkdə ittiham edən N.Xomski deyir: “Tarixi məsələləri kənara qoysaq mən düşünürəm ki, Qudmən əhəmiyyətli problemi də səhv şərh edir. O, mülahizə irəli sürür ki, birinci dilin öyrənilməsi uşağa real problem yaratmır, çünki bu dili öyrənməzdən əvvəl o, ətraf mühitlə adi münasibətlərində simvollar sistemi haqqında bəsit bilikləri artıq mənimsəyir. Beləliklə, birinci dilin öyrənilməsi ikinci dilin öyrənilməsi ilə o mənada analogiya təşkil edir ki, fundamental addım artıq atılmışdır və detallar mövcud çərçivədə nəzərdən keçirilə bilər” [1, s.122].

N.Qudmənin bu “təfsir”ində ciddi qüsurların olduğunu göstərən N.Xomski ilk növbədə ona görə haqlıdır ki, “o, bundan əvvəl dilin heyvanlararası ünsiyyətdən yaranması arqumentilə əlaqədar müzakirəyə çıxarılmış ikili mahiyyətə əsaslanır” [1,s.123]. İkincisi, N.Qudmən, bir tərəfdən, “dil” terminini heyvanlara münasibətdə metaforik mənada işlətməklə kifayətlənmir, eyni zamanda, “onun arqumenti tamamilə “simvolik sistem” terminindən qeyri-müəyyən istifadəyə əsaslanır və həmin arqument bu terminə dəqiq məna verməyə cəhd edən kimi alt-üst olur” [1, s. 123].

Məsələyə, obyektiv yanaşma bir tərəfdən, anlayışları düzgün anlayıb elmi təhkiyəyə daxil edilməsi ilə bağlıdırsa, digər tərəfdən, mühakimənin dəqiq anlayışlar əsasında yürüdülməsindən asılıdır. N.Qudmənin “dilə qədərki simvol sistemləri” anlayışı şübhəlidir. Çünki N.Qudmən “simvolik sistem” dedikdə “daxilində jestlərin”, sensor hərəkətlərin və bütün növ dərketmə siqnalları kimi funksiya daşıyan elementar dilə qədərki simvollar sistemlərini” nəzərdə tutur [1, s. 123].

İnsanın bioloji və ya fizioloji “dil”inin insan dili tarixində ayrıca bir dövr olduğu fikrində israr etmək öz-özlüyündə nə qədər maraqlı olsa da, bunu dil təkamülünün təbii bir hadisəsi saymaq o qədər yanlışdır. Vaxtilə sovet dövründə yeni dil nəzəriyyəsi və ya təlimi iddiası ilə ortaya çıxan N.Y.Marr da belə bir yanlışlığa, yaxud spekulyasiyaya yol vermişdi.

Odur ki, N.Xomski heç bir tərəddüd etmədən bildirir ki, “dilə qədərki simvollar sistemləri “birinci dilin – ikinci dilin öyrənilməsində istifadə olunması şəklində izah və öyrətmə üçün istifadə oluna bilməz. Beləliklə, hətta onun az əsaslandığına müraciət etsək belə, Qudmənin dəlilləri mənasızdır” [1, s.123].

H.Putnəmə gəldikdə isə N.Xomski deyir: “Putnəm iddia edir ki, əgər dillər arasında əhəmiyyətli eyniliklər aşkarlansa belə anadangəlmə universal qrammatikadan, yəni onların ümumi mənşəyindən daha sadə şərh olar, lakin bu təklif nəzərdən keçirilən problemin ciddi şəkildə başa düşülməsini ehtiva edir” [1, s. 128].

Eyni zamanda onu da bildirir ki, "dilin qrammatikası uşaq tərəfindən ona təqdim edilmiş materialdan aşkarlanmalıdır. Öncə qeyd olunduğu kimi, emprik problem ilkin struktur haqqında fərziyyə tapmalıdır. Bu fərziyyə spesifik qrammatikanın uşaq tərəfindən formalaşdırdığı faktı izah etmək üçün kifayət olsa da, dillərin məlum müxtəlifliyinin saxtalaşdırılması üçün kifayət deyil" [1, s.128].

Fərdin sərəncamında olan dil, heç şübhəsiz, bütün hallarda onun ümumən dilə hakim olmasını şərtləndirmədiyinə görədir ki, dilin mənimsənilməsi məsələsində fərdi olanla universal olanı bir-birindən fərqləndirmək lazımdır. "Biz, görünür ki, uşağın dildən normal şəkildə istifadə etmək qabiliyyətini izah etməyə çalışarkən ona bu qrammatikanı aid etməyə sövq edilirik" [1, s. 128].

Dilin mənimsənilməsinin linqvopsixoloji problemləri barədə N.Xomskinin son qənaət və mülahizələri onun "Təbiət və dil haqqında" kitabında (Kembric Univrsiteti, 2002; rusca nəşri, 2005) verilmişdir. Kitaba redaktor- tərtibçilərin yazdığı birinci fəsildə müəllifin görüşləri ümumiləşdirilmişdir ki, burada dilin məninsənilməsi mövzusundan bəhs edən belə bir strateji fikir öz əksini tapır: "Dili mənimsəmək – dərrakənin törətdiklərindən mümkün olanlar arasından onları seçmək deməkdir ki, təcrübə əsasında alınıb, digərləri isə atılır. Beləliklə, dil bilgisinin elementini mənimsəmək – dərrakənin a priori təklif etdiklərindən başqa bütün mümkün olanları atmaqdır" [4, s. 33].

**Nəticə:** Deməli, dillərin universal xarakteri, yəni alt və üst strukturlar arasındakı transformativ əlaqələrin olması dil və təfəkkür münasibətlərinin mümkün qədər daha emprik, daha sadə və dilin mənimsənilməsi probleminin həlli üçün daha optimal baxışlar sisteminin formalaşmasına imkanlar açır.

## Ədəbiyyat siyahısı

1. Xomski N. Dil və təfəkkür, Bakı, "Kitab aləmi", 2006, 152 səh.
2. Cəfərov N. Ümumi dilçilik, Bakı, "Təhsil", 2023, 216 səh.
3. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti, Bakı, "Elm və təhsil", 2020, 656 səh.
4. Хомский Н. О природе и языке, Москва, КомКнига, 2005, 288 стр.
5. Belyanin V.P. Psixolinqvistika, Bakı, "Elm və təhsil", 2020, 264 səh.
6. Norman B.Y. Psixolinqvistikanın əsasları, Bakı, "Elm və təhsil", 2021, 160 səh.
7. Zalevskaya A.A. İkidillilik nəzəriyyəsinin məsələləri, Bakı, "Elm və təhsil", 2020, 212 səh.
8. Savaş B. Dilbilimde Yeni Yönelişler, Ankara, Papatya, 2017, 200 səh.

***Nazrin Mustafayeva***

### *Psycholinguistic problems of language acquisition: psychological and linguistic aspects*

***Summary***

The issue of language acquisition encompasses various dimensions, including linguistic, psychological, biological, and sociological aspects; however, psychological and linguistic factors occupy a central position in its analysis. These two aspects acquired their principal theoretical foundations through the research of the prominent American linguist Noam Chomsky, whose studies, initiated in the mid-twentieth century and gaining deeper methodological significance in the 1990s, have played a crucial role in modern linguistics.

The universal nature of language and the transformational relationships between deep and surface structures have enabled the development of more empirical, simplified, and methodologically optimal approaches to understanding the relationship between language and thought, as well as to addressing the problem of language acquisition.

Although Chomsky's Minimalist Program contains a number of debatable points, alternative theories proposed to explain language acquisition are, first, less consistent and, second, do not demonstrate the same level of technical precision in analyzing the interaction between language and cognition. Therefore, Chomsky's theoretical framework not only retains its scientific authority but also demonstrates significant generative potential in refining principles that may contribute to solving this highly complex problem.

***Keywords:*** *N. Chomsky, linguistics, psychological aspect, linguistic aspect, W. Humboldt, anthropocentric linguistics, generative grammar.*

***Назрин Мустафаева***

***Психолингвистические проблемы усвоения языка: психологические и лингвистические аспекты***

***Резюме***

Проблема усвоения языка охватывает различные аспекты — лингвистические, психологические, биологические и социологические, однако центральное место в её исследовании занимают психологический и лингвистический подходы. Эти аспекты получили своё принципиальное теоретическое обоснование в трудах выдающегося американского лингвиста Ноама Хомского, чьи исследования, начавшиеся в середине XX века и приобретшие особую методологическую значимость в 1990-е годы, сыграли важную роль в развитии современного языкознания.

Идея универсальной природы языка, а также трансформационные связи между глубинными и поверхностными структурами способствовали формированию более эмпирических, упрощённых и методологически оптимальных представлений о соотношении языка и мышления и о решении проблемы усвоения языка.

Несмотря на наличие ряда дискуссионных положений в «Минималистской программе» Н. Хомского, альтернативные теории, предлагаемые для объяснения усвоения языка, отличаются меньшей последовательностью и не обладают сопоставимой технической точностью в анализе взаимодействия языка и мышления. В связи с этим теория Хомского не только сохраняет свою научную значимость, но и демонстрирует значительный порождающий потенциал в совершенствовании принципов, способствующих решению данной сложной проблемы.

***Ключевые слова:*** *Н.Хомский, лингвистика, психологический аспект, лингвистический аспект, В.Гумбольдт, антропоцентрическая лингвистика, порождающая грамматика.*

***Çapa tövsiyə edən:*** **Bakı Dövlət Universiteti**

***Rəyçilər:*** ***professor N.Cəfərov***
***fil.ü.e.d. C.Muradov***